# Dostluğa və qardaşlığa əsaslanan üçtərəfli əməkdaşlıq formatı

## Azərbaycan, Türkiyə və Pakistan arasındakı sıx tərəfdaşlıq sülhə, təhlükəsizliyə və inkişafa xidmət edir

**Son həftələr Azərbaycanın xarici siyasəti və beynəlxalq əlaqələri baxımından mühüm hadisələrlə zəngindir. Bu sırada Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin ölkəmizə dövlət səfəri, Prezident İlham Əliyevin isə Türkiyəyə işgüzar səfəri respublikamızın dost və qardaş dövlətlərlə əlaqələrinin dərinləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdi.**

### Azərbaycanın ədalətli mövqeyini qətiyyətlə müdafiə edən dövlətlər

Həm Türkiyə, həm Pakistan Azərbaycanla dost və qardaş dövlətlər olmaqla yanaşı, respublikamızın ən yaxın strateji tərəfdaşlarıdır. Təsadüfi deyil ki, Türkiyə və Pakistan 1991-ci ilin dekabrında Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan dövlətlərdir. Azərbaycanın bu dövlətlərlə tarixdən, milli-mənəvi dəyərlərdən güc alan əlaqələri ötən 33 ildən artıq bir dövrdə daha da inkişaf etmiş, dərinləşmiş, yeni keyfiyyət göstəriciləri ilə zənginləşmişdir. O da təsadüfi deyil ki, həm Türkiyə, həm də Pakistan Azərbaycanın haqq işini hər zaman qətiyyətlə müdafiə etmiş, Ermənistanla heç vaxt diplomatik münasibətlər qurmamışlar. 44 günlük Vətən müharibəsi günlərində isə hər iki dövlət Azərbaycanın haqlı mövqeyini bir daha qətiyyətlə müdafiə etdilər.

Eyni zamanda Türkiyə və Pakistan arasında əlaqələr hər zaman olduqca yüksək səviyyədə olmuşdur. Bütün bunlar nəticə etibarilə Azərbaycan Türkiyə və Pakistan arasında əlaqələrin həm də üçtərəfli əməkdaşlıq formatlarında inkişaf etdirilməsi üçün güclü siyasi zəmin formalaşdırmışdır. Son illər Azərbaycan, Pakistan və Türkiyə arasında bir neçə sahədə üçtərəfli formatda əməkdaşlığın həyata keçirilməsi bu üç dövlət arasındakı əlaqələrin inkişafına xidmət etməklə bərabər, onların beynəlxalq münasibətlər sistemindəki rolunu da artırır.

Lakin üç qardaş dövlət arasında birgə fəaliyyətin həyata keçirilməsi ilə bağlı əməkdaşlığın təməli uzun illər əvvəl qoyulub. Buna misal olaraq, hələ 2017-ci il noyabrın 30-da Bakıda keçirilən Türkiyə, Azərbaycan və Pakistanın xarici işlər nazirlərinin görüşünün yekununda Bakı bəyannaməsinin qəbul edilməsini misal göstərmək olar.

### Diplomatiyadan hərbi təlimlərə qədər

Azərbaycan, Pakistan və Türkiyə arasında yeni, daha güclü və çoxməzmunlu üçtərəfli əməkdaşlıq formatının təməli isə 2020-ci ilin Vətən müharibəsi dövründə qoyuldu. Pakistan və Türkiyənin Azərbaycana güclü siyasi dəstəyi nəticə etibarilə bu üç dövləti bir-birinə daha da yaxınlaşdırdı.

Hazırda Azərbaycan Pakistan və Türkiyə arasında dövlət rəhbərləri, parlamentlər, xarici işlər nazirləri və müdafiə nazirlikləri arasında üçtərəfli formatda əməkdaşlıq əlaqələri mövcuddur. 2021-ci il iyulun 27-də Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin üçtərəfli görüşündə imzalanmış Bakı Bəyannaməsinə əsasən, tərəflər regional və qlobal məsələlərdə yaxından fəaliyyət göstərməyə hazır olduqlarını və beynəlxalq parlament strukturlarında üç qardaş ölkə olaraq ortaq bir mövqe sərgiləməyə çalışacaqlarını ifadə ediblər, nəqliyyat, ticarət, enerji, xalqlar arasında təmas, təhsil, sosial və mədəniyyət, turizm, elm və rabitə texnologiyalarında regional müstəvidə daha yaxın əməkdaşlıq inşa etmək səylərində hökumətlərə ətraflı dəstək vermək məsələsində konsensusa gəliblər. Həmçinin hər üç dövlət müstəqillik, suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq sərhədlərinin toxunulmazlığı üçün güclü dəstəklərini və qarşılıqlı hörmətlərini yenidən təsdiq ediblər. Bu sənədə əsasən, Türkiyə və Pakistan Ermənistanın Azərbaycana mina xəritələrini verməyi rədd etməsini qınayaraq, azad edilmiş torpaqların yenidən inşası və məcburi köçkünlərin evlərinə qaytarılması səylərində Azərbaycan ilə tam həmrəylik içində olduqlarını vurğulayıblar.

Məhz Vətən müharibəsindən sonra bu üç ölkə arasında həm də yeni məzmun alan hərbi təlimlərin keçirilməsinə başlanılıb. Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə keçirilən "Üç qardaş" hərbi təlimi isə bu dövlətlər arasında mövcud olan dostluq, qardaşlıq və bütün sahələrdə tərəfdaşlıq münasibətlərinin bariz nümunəsidir.

### Bütün tərəflərin maraqlarına xidmət edən nümunəvi tərəfdaşlıq

2024-cü il iyulun 3-də Astanada "Şanxay Əməkdaşlıq Təşkilatı plyus" formatında keçirilən görüş çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin, Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə təşkil olunan üçtərəfli görüş böyük önəm kəsb etdi. Görüşdə ölkələr arasındakı siyasi əlaqələrin ruhuna uyğun olaraq üçtərəfli formatda iqtisadi-ticari əlaqələrin, innovasiyalar, energetika, kənd təsərrüfatı, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı. İqtisadi-ticari əlaqələrin artan dinamikası müsbət hal kimi qeyd edildi, bunun ölkələrimizin potensialına tam şəkildə uyğunlaşdırılmasının vacibliyi vurğulandı. İqtisadiyyat, ticarət və digər sahələrdə əməkdaşlıqla yanaşı, "Üç qardaş" şüarı altında keçirilən hərbi təlimlərin əhəmiyyətinin vurğulanması və üç ölkənin Silahlı Qüvvələri tərəfindən birgə təlimlərin bundan sonra da mütəmadi qaydada keçirilməsi təklifinin irəli sürülməsi, müdafiə sənayesi sahəsində birgə istehsalın təşkili məsələsinin gündəmə gətirilməsi üç ölkə arasında hərbi sahədə əlaqələrin bundan sonra daha da dərinləşəcəyini deməyə imkan verir.

İndiyə qədər üç ölkənin dövlət rəhbərləri, parlament sədrləri, xarici işlər nazirləri səviyyəsində üçtərəfli görüşlər keçirilmiş, əhəmiyyətli məsələlər üzrə razılıqlar əldə edilmiş və əməkdaşlıq səviyyəsi daha da genişlənmişdir. Bu görüşlərdə müzakirə olunan məsələlər əlaqələrin bütün sahələri əhatə etdiyini göstərir. Ən əsası odur ki, Azərbaycan, Pakistan və Türkiyə arasında bütün tərəflərin qarşılıqlı maraqlarına xidmət edən bu nümunəvi üçtərəfli əməkdaşlıq platforması yalnız sülhə, təhlükəsizliyə, sabitliyə və inkişafa xidmət edir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.-13 mart (№55).- S.7.